# İQTİSADİYYAT

## ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATININ NORMAYARADICILIQ FƏALİYYƏTİ VƏ BEYNƏLXALQ GÖMRÜK MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ

**A.NADİROV, V.ƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***alievv@mail.ru***

*Məqalədə Ümumdünya Gömrük Təşkilatının normayaradıcılıq fəaliyyəti və beynəlxalq gömrük münasibətlərinin tənzimlənməsi məsələləri ədəbiyyatda mövcud fikir müxtəlifliyi və beynəlxalq praktika əsasında geniş təhlil edilir. Qeyd edilir ki, gömrük işi sahəsində vahid və standart normaların işlənib hazırlanmasında Ümumdünya Gömrük Təşkilatı digər təşkilatlardan kifayət qədər fərqlənir. Belə ki, Ümumdünya Gömrük Təşkilatı gömrük işi sahəsində hüquq sistemlərinin uzlaşdırılması üzrə müvafiq hüquqi normaların işlənib hazırlanması üzrə zəruri məsələləri daha yaxşı müəyyən edir.*

*Sonda belə nəticəyə gəlinir ki, Ümumdünya Gömrük Təşkilatının gömrük işi sahəsində hüquq sistemlərinin uzlaşdırılması üzrə fəaliyyəti onun əsas məqsədlərinin reallaşmasının mühüm vasitəsidir. Gömrük məsələlərini vahid tənzimləyən normaların işlənib hazırlanması nəticəsində Ümumdünya Gömrük Təşkilatı çərçivəsində gömrük işi sahəsində hüquq sistemlərinin uzlaşdırılması bütövlükdə beynəlxalq ticarətin dinamik inkişafına, o cümlədən üzv-dövlətlərdə gömrük işinin təkmilləşməsinə bilavasitə kömək edir.*

Gömrük və onun müxtəlif aspektlərinin tənzimlənməsi, müvafiq sferada Gömrük Əməkdaşlığı Şurası - hazırda isə Ümumdünya Gömrük Təşkilatının (ÜGT) fəaliyyəti, xüsusilə onun normayaradıcılıq fəaliyyəti beynəlxalq gömrük hüququnun formalaşması və inkişafına özünəməxsus şəkildə təsir göstərmişdir. Ancaq bu, heç də ÜGT-nin normayaradıcılıq fəaliyyəti ilə beynəlxalq gömrük hüququnun eyniləşdirilməsi demək deyildir. Doğrudur, həmin fəaliyyətin nəticəsi beynəlxalq gömrük hüququnun mənbələrindən biri qismində çıxış etsə də, bütövlükdə onu əhatə etmir. Belə ki, norma və prinsiplərin məcmusu kimi özünün təşəkkül mərhələsini yaşayan beynəlxalq gömrük hüququ digər sahələrə münasibətdə yeni olmasına baxmayaraq, onun mövcud sistemyaradıcı elementləri daha möhkəm şəkildə təsbit edilmişdir (2, 99).

ÜGT Nizamnaməsinə əsasən, bu Təşkilatın əsas fəaliyyət istiqamətlərindən biri məhz normayaradıcılıqdır (3, 246). Normayaradıcılıq fəaliyyəti ÜGT-nin mühüm fəaliyyət istiqaməti olmaqla, həm də onun bütün fəaliyyətində mərkəzi mövqe tutur. ÜGT-nin təsis aktının (Gömrük Əməkdaşlığı Şurasının yaradılması haqqında 1950-ci il tarixli Konvensiya) III maddəsində birbaşa təsbit olunmuşdur ki, təşkilatın əsas funksiyalarından biri gömrük işi sahəsində konvensiya layihələrinin və onlara düzəliş-

lərin işlənib hazırlanmasından ibarətdir. Bundan əlavə, Konvensiyanın preambulasında göstərilir ki, ÜGT-in normayaradıcılıq fəaliyyətinin məqsədi razılaşdırılmış və uyğun gömrük sistemlərinin daha yüksək səviyyəsinin təmin edilməsi, iqtisadi və texniki amilləri nəzərə almaqla gömrük texnikası və gömrük qanunvericiliyinin inkişafı və təkmilləşməsi işində yaranan problemlərin öyrənilməsindən ibarətdir (20, 292).

ÜGT-nin fəaliyyəti çərçivəsində işlənib hazırlanmış normaların əksəriyyəti beynəlxalq müqavilələrdə – beynəlxalq gömrük konvensiyalarında, yəni Razılığa Gələn Tərəflər üçün məcburi olan dövlətdaxili göstərişlər və ya qərarlar əsasında tərəflər üçün hüquqi cəhətdən məcburi olan beynəlxalq gömrük konvensiyalarında təsbit olunur. Beynəlxalq gömrük konvensiyaları bir tərəfdən gömrük praktikasının tələblərini nəzərə alır, digər tərəfdən isə gömrük işi sahəsində üzv-dövlətlər üçün məqbul olan beynəlxalq-hüquqi normaları müəyyən etməklə gömrük işinin gələcək inkişaf yollarını təyin edir.

ÜGT-nin fəaliyyəti çərçivəsində gömrük işi sahəsində ümumi, universal beynəlxalq gömrük konvensiyaları işlənib hazırlanmışdır. Bunlara aiddir: Yüklərin gömrük tariflərində təsnifatı üçün nomenklatura haqqında 1950-ci il tarixli Konvensiya, Yüklərin gömrük məqsədilə qiymətləndirilməsi haqqında 1950-ci il tarixli Konvensiya, Gömrük prosedurlarının sadələşdirilməsi və harmonizasiyası haqqında 1973-cü il tarixli Konvensiya (Kioto Konvensiyası) (1999-cu il redaksiyasında), Beynəlxalq Yük Daşımaları (BYD) kitabçasını tətbiq etməklə beynəlxalq yük daşınmaları haqqında 1975-ci il (1997-ci ildə yenidən baxılmış) tarixli Gömrük Konvensiyası, Müvəqqəti idxal üçün ATA karneti haqqında 1961-ci il tarixli Gömrük Konvensiyası, Müvəqqəti idxal haqqında 1990-cı il tarixli Konvensiya, Yüklərin təsnifatının və kodlaşdırılmasının harmonikləşmiş sistemi haqqında 1983-cü il tarixli Konvensiya, Gömrük hüquq pozuntularının xəbərdar olunması, təhqiq edilməsi və aradan qaldırılması ilə bağlı inzibati yardım haqqında 1977-ci il tarixli Beynəlxalq Konvensiya və s.

Bütövlükdə, 170-dən yuxarı üzv-dövlətə malik ÜGT universal beynəlxalq təşkilat olmaq etibarilə gömrük işi sahəsində beynəlxalq əməkdaşlığa kömək edilməsinə xidmət edir. Bu təşkilat tərəfindən 20-dən artıq beynəlxalq müqavilə və gömrük işi sahəsində beynəlxalq münasibətləri tənzimləyən 50-dən yuxarı tövsiyə xarakterli qətnamə işlənib hazırlanmışdır (15, 735).

Göstərilən beynəlxalq gömrük konvensiyaları arasında Gömrük prosedurlarının sadələşdirilməsi və harmonizasiyası haqqında 1973-cü il tarixli Kioto Konvensiyası və 1999-cu il Protokolu xüsusi qeyd edilməlidir. Bu Konvesiya özünün çoxsaylı əlavələri ilə birlikdə, haqlı olaraq, dövlətlərin öz aralarındakı gömrük münasibətlərində özünəməxsus davranış məcəlləsi hesab edilə bilər (20, 207). Gömrük Əməkdaşlığı Şurasının himayəsi altında hazırlanan bu Konvensiya əsas mətnin 19 maddəsindən və hüquqi nöqteyi-nəzərdən Konvensiyanın ayrılmaz tərkib hissəsi olan və hər biri ayrı-ayrılıqda öz xarakterinə və əhəmiyyətinə görə müstəqil konvensiyalara bərabər tutulan 31 Əlavədən ibarətdir.

Konvensiyada gömrük qaydaları və prosedurlarının tətbiqi zamanı öncədən şəffaflıq, açıqlıq və ardıcıllıq, maraqlı tərəflərə gömrük işi üzrə qanunlar, normativ hüquqi və inzibati aktlar, gömrük qaydaları və prosedurları barədə bütün zəruri informasiyanın verilməsi, milli orqanlarla digər dövlətlərin gömrük xidmətləri və ticarət birlikləri ilə bütün zəruri hallarda əməkdaşlıq məsələləri nəzərdə tutulmuşdur. Konvensiyanın məqsədi təkcə gömrük xidmətinin malların bir yerdən başqa yerə hərəkətini asanlaşdırmaq ehtiyacını təmin etməkdən deyil, həm də gömrük qanunvericiliyi və gömrük nəzarətinin müddəalarına əməl edilməsinə səmərəli şəkildə yardım göstər-

məkdən ibarətdir. Beynəlxalq ticarətdə sürətli dəyişikliklər, qloballaşma və informasiya texnologiyası gömrük idarələrini, baş verən dəyişikliyi nəzərə almaqla, öz gömrük qaydaları və prosedurlarını çevik dəyişdirməyə məcbur edir.

26 iyun 1999-cu il tarixdə Brüssel şəhərində ÜGT-nin 94-cü sessiyasında iştirak edən dünyanın 114 gömrük xidmətlərinin nümayəndələri yekdilliklə Kioto konvensiyasına Əlavə Protokol (Brüssel Protokolu) qəbul etdilər. Brüssel Protokoluna müvafiq olaraq yeni Kioto konvensiyasının məqsədi - Razılığa gələn Tərəflərin tətbiq etdikləri beynəlxalq ticarət və beynəlxalq mübadilənin digər növlərinə ziyan vura biləcək gömrük qayda və prosedurları arasında fərqlərin aradan qaldırılması, beynəlxalq ticarət iştirakçılarının gömrük qayda və prosedurlarının yüngülləşdirilməsi, sadələşdirilməsi və harmonizasiyasında tələbatlarının qane edilməsi, gömrük xidmətlərinin kommersiya praktikası, inzibati-təsərrüfat idarəetməsinin forma və metodlarında mühüm dəyişikliklərə adekvat təsir göstərməsi imkanından ibarətdir.

Gömrük prosedurlarının sadələşdirilməsi məqsədilə ÜGT çərçivəsində işlənib hazırlanmış mühüm sənədlərdən biri də 1961-ci ildə Brüsseldə imzalanmış və 1963-cü ildə qüvvəyə minmiş Malların müvəqqəti idxalı üzrə ATA karneti haqqında Konvensiyadır (ATA Konvensiyası). ATA fransız və ingilis söz birləşmələrinin baş hərflərinin kombinasıyasından təşkil olunmuşdur və yalnız bir məna ifadə edir – «müvəqqəti buraxılma» (fransızca «admission temporaire» və ingiliscə «temporary admission») (20, 226). Gömrük terminləri lüğətində bu anlayış belə göstərilir: ATA kitabçası - müəyyən yüklərin idxal, ixrac və tranzit gömrük sənədlərinin toplusudur. ATA Konvensiyası 28 maddə və ATA kitabçasının nümunəsinin göstərildiyi Əlavədən ibarətdir. Konvensiyanın Preambulasında göstərilir ki, Konvensiyanın əsas məqsədi beynəlxalq kommersiya və mədəni sferalarda fəaliyyətdə əhəmiyyətli üstünlüyə malik və Razılığa gələn Tərəflərin gömrük sistemlərinin harmonizasiya və unifiksiyasının daha yüksək səviyyəsinə çatmağı nəzərdə tutan yüklərin müvəqqəti olaraq rüsumsuz idxalının vahid qaydasının qəbul edilməsindən ibarətdir (18, 20). Konvensiyanın 1-ci maddəsinə əsasən «müvəqqəti icazə» dedikdə, müvafiq Konvensiyanın 3-cü maddəsində və ya idxal ölkəsinin milli qanun və qaydalarında nəzərdə tutulmuş şərtlərə müvafiq olaraq idxal rüsumlarından azad müvəqqəti idxal başa düşülür.

Onilliklər ərzində ATA karnetinin tətbiqi praktikası müvəqqəti idxal proseduruna münasibətdə hüquqi dövlətlərin sistemlərini unifikasiya və harmonizasiya edən beynəlxalq-hüquqi normaların gələcək təkmilləşdirilməsinin zəruriliyini uzə çıxardı. Dövlətlərin xarici-iqtisadi əlaqələrinin inkişafı ilə bağlı, o cümlədən qloballaşma proseslərinin artması şəraitində müvəqqəti idxal üzrə əvvəl qəbul olunmuş bütün beynəlxalq konvensiyaları özündə cəmləşdirən kodifikasiya xarakterli beynəlxalq-hüquqi aktn işlənib hazırlanması və qəbul edilməsi problemi yarandı. Nəticədə, ÜGT-nin Daimi Texniki Komitəsinin həyata keçirdiyi işlər nəticəsində əvvəl mövcud olan on beş beynəlxalq müqaviləni (o cümlədən, Kommersiya nümunələri və reklam materiallarının idxal olunmasının sadələşdirilməsi haqqında 1952-ci il Konvensiyası, Elmi avadanlıqların müvəqqəti idxal olunması haqqında 1968-ci il Konvensiyası və digərləri) dəyişdirən Müvəqqəti idxal haqqında 1990-cı il tarixli İstanbul Konvensiyası işlənib hazırlanmış və qəbul edilmişdir.

Müvəqqəti idxal haqqında 1990-cı il tarixli Konvensiya (bundan sonra İstambul Konvensiyası) müvəqqəti idxal sferasında əvvəl qəbul olunmuş beynəlxalq-hüquqi sazişləri cəmləşdirərək Konvensiyanın iştirakçı-dövlətlərinin milli-hüquqi gömrük normalarının unifikasiya və harmonizasiyasına kömək etmişdir (17, 3-5). Razılığa gələn Tərəflər İstanbul Konvensiyasının preambulasında göstərmişlər ki, gömrük

rejimlərinin sadələşdirilməsi və harmonizasiyası, xüsusilə də müvəqqəti idxal barədə bütün mövcud konvensiyaları əhatə edəcək vahid beynəlxalq müqavilənin qəbulu mövcud beynəlxalq qaydalardan istifadəni asanlaşdıra, beynəlxalq ticarətin və beynəlxalq mübadilənin digər formalarına səmərəli yardım göstərə bilər. İstambul Konvensiyası əsas mətn və hər biri müvəqqəti idxal üçün sadələşdirilmiş proseduru özündə əks etdirən on üç Əlavədən ibarətdir. Üzv-dövlətin A Əlavəsinə (müvəqqəti idxal sənədləri – ATA və CPD karnetlərinin təsdiq olunması) və ən azı on üç Əlavədən birinə qoşulması Konvensiyanın imzalanmasının vacib şərtidir. Beləliklə, İstambul Konvensiyası ÜGT çərçivəsində işlənib hazırlanmış beynəlxalq gömrük konvensiyaları sistemində əhəmiyyətli yer tutur və beynəlxalq gömrük münasibətləri praktikasında geniş tətbiq olunur.

ÜGT çərçivəsində işlənib hazırlanmış BYD kitabçasını tətbiq etməklə beynəlxalq yük daşınmaları haqqında 1975-ci il (1997-ci ildə yenidən baxılmış) tarixli Gömrük konvensiyası (BYD Konvensiyası) gömrük işi sahəsində mühüm əhəmiyyət kəsb edir. Konvensiyanın Preambulasında Razılığa gələn Tərəflər beynəlxalq daşımalar sahəsində inzibati, xüsusən sərhəd rəsmiləşdirilməsinin sadələşdirilməsi və harmonizasiyasının xeyrinə çıxış edərək, daşımaların asanlaşdırılması şəraitinin onlar arasında əməkdaşlığın mühüm faktor olduğunu hesab edərək yol nəqliyyat vasitələrinin köməyi ilə beynəlxalq yük daşımalarının yüngülləşdirilməsinə kömək etməyə cəhd edirlər (14, 985).

Qeyd etmək lazımdır ki, BYD Konvensiyası quvvəyə mindiyi andan Razılığa gələn Tərəflər arasında mənaca oxşar olan Beynəlxalq Yük Daşımaları (BYD) haqqında 1959-cu il tarixli Avropa Konvensiyasını ləğv etdi və beynəlxalq yük daşımaları şəraitini əhəmiyyətli dərəcədə yaxşılaşdıraraq həqiqətən də universal, ümumdünyəvi beynəlxalq müqavilə oldu (20, 202).

ÜGT çərçivəsində işlənib hazırlanmış Malların təsviri və kodlaşdırılmasının harmonikləşdirilmiş sistemi haqqında 1983-cü il tarixli Beynəlxalq Konvensiya (Brüssel Konvensiyası) da gömrük məsələləri ilə bağlı bir sıra münasibətləri tənzimləyir. Həmin Konvensiyanın işlənib hazırlanması və qəbul edilməsini şərtləndirən əsas səbəblərdən biri ondan ibarət olmuşdur ki, beynəlxalq ticarətdə texnoloji tərəqqi və dəyişikliklər yeni tələblərə cavab verən mal qruplarının lazımi detallaşdırılma dərəcəsini artıq təmin edə bilməyən 1950-ci il dekabrın 15-də Brüsseldə bağlanan Gömrük tariflərində malların təsnifatı üçün nomenklatura haqqında Konvensiyada mühüm dəyişiklərin edilməsini zəruri etmişdir. Konvensiya 20 maddə və Konvensiyanın ayrılmaz hissəsi sayılan Əlavədən ibarətdir. Konvensiyanın ən mühüm məqsədləri malların qiymətləndirilməsində maksimum uyğunluğun əldə edilməsindən, gömrük tarifləri üzrə danışıqların aparılmasının sadələşdirilməsindən ibarətdir. Konvensiyanın 1-ci maddəsinə görə «malların təsviri və kodlaşdırılmasının harmonikləşdirilmiş sistemi» dedikdə, əmtəə mövqelərini, submövqelərini, onlara aid olan rəqəmli kodları, bölmələrə, qruplara və submövqelərə edilən qeydlərin, həmçinin harmonikləşdirilmiş sistemin şərhi üçün Konvensiyanın Əlavəsində göstərilmiş əsas təsnifat qaydalarını özündə birləşdirən nomenklatura başa düşülür.

Dövlətlərin gömrük münasibətləri təcrübəsində mühüm məsələlərdən biri ÜGT-nin bütün üzv-dövlətləri üçün ümumi olan gömrük hüquq pozuntularının aradan qaldırılmasının təmin edilməsindən ibarətdir. Bu aspekt dövlətlərin gömrük xidməti əməkdaşlığının mühüm istiqamətlərindən biri kimi, hələ Gömrük Əməkdaşlığı Şurası yarandığı andan onun əsas məsələləri sırasında idi və bu barədə ilk tövsiyələr hələ 1953-cü ildə qəbul edilmişdir. Lakin dövlətlərin gömrük qaydaları pozuntusu və

qaçaqmalçılıqla mübarizə sahəsində qarşılıqlı münasibətlərini tənzimləyən ümumi hüquqi əsas 9 iyun 1977-ci il Nayrobi şəhərində Gömrük hüquqpozmalarının qarşısının alınması, təhdid edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında Beynəlxalq Konvensiyanın qəbul edilməsi olmuşdur. Konvensiyanın mühüm xüsusiyyəti ondan ibarətdir ki, onun müddəaları hətta bu Konvensiyada iştirak etməyən dövlətlərdə də faktiki olaraq tətbiq olunur. 23 əsas maddə və 11 əlavədən ibarət olan Konvensiya 21 may 1980-ci ildə qüvvəyə minmişdir. Əlavələrdə bu məsələlər qeyd olunmuşdur: xüsusi informasiyanın toplanması və qarşılıqlı mübadiləsi; gömrük xidmətləri tərəfindən hüquqi hərəkətlərin yerinə yetirilməsinin təmin olunması; gömrük hüquq pozuntularına qarşı mübarizədə qarşılıqlı asılılıq və s. (6, 173). Konvensiyanın Preambulasında qeyd olunur ki, gömrük qanun və qaydalarının pozulması təkcə dövlətlərin iqtisadi və fiskal maraqları əleyhinə istiqamətlənməmişdir, həm də bütün sosial sferaya təhlükə yaradır. Bu xüsusən narkotik vasitələr və psixotrop maddələrin, o cümlədən hər bir ölkənin milli dəyəri olan mədəni sərvətlərə aiddir. Ümumilikdə Konvensiya ümumi qayda kimi, birincisi, gömrük qaydalarının pozulmasına qarşı mübarizədə bərabər, tarazlaşdırılmış hüquqi köməyin təqdim olunması prinsipini müəyyən edir, ikincisi, Razılığa gələn Tərəflər Konvensiyaya müvafiq olaraq belə kömək göstərərkən, dövlət suverenliyi, dövlət təhlükəsizliyi meyarlarına əsaslanaraq öz milli qanunvericiliyi çərçivəsində fəaliyyət göstərirlər.

1983-cü ilin iyun ayında Gömrük Əməkdaşlığı Şurasının qərarı ilə Hüquqmühafizə Komitəsi yaradılmışdır. Komitə gömrük qaydalarının pozulmasına, ticarət dövriyyəsinin, əqli mülkiyyət hüquqları sahəsində pozuntulara, o cümlədən qaçaqmalçılıq yolu ilə narkotik və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizənin müxtəlif aspektləri üzrə tövsiyələr hazırlayır.

Göründüyü kimi, ÜGT çərçivəsində işlənib hazırlanmış və qəbul edilmiş çoxsaylı universal beynəlxalq normalar həm ÜGT-nin üzvü, həm də üzvü olmayan dövlətlərin qanunvericilik praktikasına getdikcə daha sürətlə implementasiya olunur. Ümumilikdə gömrük işinin müxtəlif istiqamətləri üzrə beynəlxalq-hüquqi normaların tanınması kimi belə implementasiya prosesi tədricən inkişaf edir. ÜGT-nin hüquqyaradıcılığının effektiv göstəricisi üzv-dövlətlərin təşkilat çərçivəsində işlənib hazırlanan hüquqi normalara münasibətindən asılıdır. V.Moravetskinin fikrincə, effektliliyin formal göstəricisi qəbul olunmuş mətnlərin məcburi qüvvəyə minməsindən, xüsusən onun məcburi qüvvəsini tanıyan dövlətlərin sayından asılıdır (16, 119).

Beləliklə, gömrük işi sahəsində ÜGT-nin əsas fəaliyyəti vahid və uyğunlaşmış hüquqi tənzimlənmənin tətbiq edilməsinə istiqamətlənən beynəlxalq gömrük konvensiyalarının, yəni müqavilə mexanizmlərinin işlənib hazırlanmasından ibarətdir. A.N.Kozırin hesab edir ki, gömrük münasibətləri sahəsində konvensiya normalarının əhəmiyyəti, hətta onun iştirakçısı olmayan dövlətlər üçün də yüksəkdir. Belə ki, beynəlxalq müqavilələrin müddəaları həmin dövlətlərin hüquqi tənzimlənmə vasitələrinə birbaşa təsir göstərir (13, 90).

Müqavilə mexanizmindən savayı, ÜGT çərçivəsində həmçinin qeyri-hüquqi mexanizmlərdən istifadə olunur. Bunlara ÜGT çərçivəsində müxtəlif qətnamə və tövsiyə, o cümlədən model qanunların qəbul edilməsi yolu ilə tövsiyə xarakterli çoxsaylı normaların işlənib hazırlanması aiddir.

ÜGT öz fəaliyyəti dövründə gömrük məsələləri üzrə çoxsaylı tövsiyəedici normalar işləyib hazırlamışdır. Məsələn, ÜGT Şurasının sessiyalarında yüklərə gömrük bəyannamələrinin verilməsi qaydaları və bəyannamələrin həqiqiliyinin təsdiq edilməsi haqqında; yüklərin gömrük məbləğinin müəyyən edilməsi haqqında; nəqliyyat

növünün məzmununun müəyyən edilməsi üçün gömrük administrasiyası tərəfindən koddan istifadə olunması haqqında; gömrük tranzit sistemləri arasında əlaqələrin müəyyən edilməsi haqqında; gömrük fəaliyyətində konteynerlərlə bağlı kontrabandaya qarşı mübarizə haqqında tövsiyələr; vahid və uzlaşdırılmış gömrük sistemlərinin nailiyyəti məqsədilə qəbul olunmuş konvensiya və digər beynəlxalq müqavilələrin irəliləyişi haqqında Seul Bəyannaməsi; gömrük əməkdaşlarının ədalətliyi barədə Aruş Bəyannaməsi; yüklərin tədarükünün kompleks idarəedilməsi üzrə ÜGT-nin gömrük tövsiyələri; gömrük informasiyasının toplanması və ötürülməsini tənzimləyən milli qanunvericiliyin işlənib hazırlanması üzrə Tövsiyələr; risklərin qiymətləndirilməsinin Standart metodları; yüklərin tədarükünün beynəlxalq fəaliyyətinin təhlükəsizliyi və yüngülləşdirilməsi barədə 2002-ci il; yüklərin tədarükünün beynəlxalq fəaliyyətinin təhlükəsizliyi və yüngülləşdirilməsi üzrə qlobal tədbirlər barədə 2004-cü il; Dünya ticarətinin təhlükəsizliyinin və yüngülləşdirilməsinin Çərçivə standartları haqqında 2005-ci il Qətnamələri və s. qəbul edilmişdir (7, 160-161).

ÜGT tərəfindən tövsiyəedici xarakterli normalar qətnamə formasında qəbul olunur. ÜGT-nin son zamanlar qəbul etdiyi Dünya ticarətinin təhlükəsizliyinin və yüngülləşdirilməsinin Çərçivə standartlarının təsdiq edilməsi haqqında 2005-ci il Qətnaməsi mühüm əhəmiyyət daşıyır. Çərçivə standartlarının əsas məqsədləri beynəlxalq gömrük hüququnun prinsipləri kimi yeni Kioto Konvensiyasında əks olunan prinsiplərə uyğundur. Xüsusən Çərçivə standartlarında aşağıdakı məqsədlər təsbit edilmişdir: qlobal səviyyədə malların çatdırılmasının beynəlxalq təhlükəsizliyini və yüngülləşdirilməsini təmin edən standartların müəyyən edilməsi; müxtəlif ölkələrin gömrük xidmətləri arasında əməkdaşlığın möhkəmlənməsi; gömrük strukturları və sahibkar birlikləri arasında əməkdaşlığın möhkəmlənməsi; malların təhlükəsiz çatdırılması üzrə yüklərin fasiləsiz hərəkət etməsinə kömək edilməsi və s.

ÜGT-nin fəaliyyəti çərçivəsində model mexanizmdən çox az hallarda istifadə olunur. Müqavilə mexanizmi ilə müqayisədə model mexanizmin əhəmiyyətli çatışmazlığı qeyri-hüquqi olmasındadır. Bundan əlavə, dövlətlər bununla bağlı heç bir məsuliyyət daşımırlar və öz ehtimallarına görə model qanunlara dəyişiklik və əlavələr edə bilərlər. Adətən model layihələr regional inteqrasiya birlikləri çərçivəsində işlənib hazırlanır. Belə ki, regional əsasda oxşar maraqların üzə çıxarılması və buna müvafiq model qanunların işlənib hazırlanması daha asandır. Lakin inteqrasiyanın hüquqi tənzimlənməsində beynəlxalq birliyn maraqlılığı universal əsasda uzlaşdırılma yollarının tapılmasını da tələb edir. Məsələn, ÜGT tərəfindən əqli mülkiyyətin mühafizəsi üzrə gömrük xidmətlərinin fəaliyyətini tənzimləyən Əqli mülkiyyət hüquqlarının ticarət aspektlərinin qorunması haqqında Model qanun işlənib hazırlanmışdır (9, 125).

Beləliklə, ÜGT öz fəaliyyəti çərçivəsində praktiki olaraq bütün hüquqi forma və mexanizmlərdən istifadə edir. Bu və ya digər formanın seçimi beynəlxalq gömrük münasibətlərinin spesifikliyindən asılıdır. Lakin beynəlxalq-hüquqi normaların işlənib hazırlanmasında və dövlətlər tərəfindən beynəlxalq gömrük konvensiyalarının bağlanmasında müqavilə mexanizmi sözsüz ki, əsas sayılır.

Bütövlükdə, ÜGT fəaliyyəti müasir beynəlxalq gömrük əməkdaşlığı probleminin, o cümlədən gömrük işində hüquq sistemlərinin uzlaşdırılması məsələlərinin həll edilməsinə istiqamətlənmişdir. Gömrük işi sahəsində hüquq normalarının uzlaşdırılması milli hüquq sistemlərinin ümumilikdə uyğunlaşdırılmasının mühüm istiqamətidir. Milli hüquq sistemlərinin uzlaşdırılması vahid və eyni hüquqi tənzimlənmənin müəyyən olunmasına istiqamətlənən normaların işlənib hazırlanması yolu ilə həyata keçir. Milli hüquq sistemlərinin uzlaşdırılması qloballaşma ilə sıx əlaqəlidir. Qlobal-

laşma obyektiv xarakter daşıyır və müxtəlif dövlətlər və cəmiyyət arasında artan qarşılıqlı asılılığın, qarşılıqlı əlaqənin ilkin şərtidir. Qloballaşma müxtəlif ölkələr arasında iqtisadi, siyasi və mədəni təsirlərin çoxdan gedən beynəlmiləlləşmə prosesinin yeni mərhələsidir. Qloballaşmanın əsasında beynəlxalq iqtisadi əlaqələrin inkişafı durur, onun əsas tərkib hissəsi isə iqtisadi inteqrasiya prosesləridir. ÜGT-nin milli hüquq sistemlərinin uzlaşdırılması üzrə fəaliyyəti təkcə gömrük işi sahəsində vahid hüquqi tənzimlənməyə istiqamətlənən hüquqi və tövsiyəedici normaların işlənib hazırlanmasından ibarət deyil, o həm də müvafiq normaların tətbiq edilməsi, şərhi, zəruri hallarda normalara dəyişiklik edilməsi və onlara əlavələrin olunmasının təmin edilməsi ilə məşğul olur.

Gömrük işi sahəsində vahid və standart normaların işlənib hazırlanmasında da ÜGT digər təşkilatların belə normaların yaradılması vasitələrindən fərqlənir. Bu onunla izah olunur ki, ÜGT gömrük işi sahəsində hüquq sistemlərinin uzlaşdırılması üzrə müvafiq hüquqi normaların işlənib hazırlanması üzrə zəruri məsələləri daha yaxşı müəyyən edir. Bu sahədə vəziyyətin daha dərindən tədqiq edilməsi, təşkilatın üzv-dövlətləri arasında məşvərətlərin keçirilməsi və s. daha problemli məsələlərin dərindən öyrənilməsinə, müxtəlif ölkələrin ehtiyac və maraqlarının, onların mövqelərinin üzə çıxarılmasına imkan verir. Bundan əlavə, ÜGT öz sərəncamında xüsusi orqanlara malikdir ki, onlar da beynəlxalq gömrük münasibətlərinin bu və ya digər sferasında hüquq sistemlərinin uyğunlaşdırılması üzrə işlərin görülməsi və nizamlanması ilə məşğuldur.

Beləliklə, ÜGT-nin gömrük işi sahəsində hüquq sistemlərinin uzlaşdırılması üzrə fəaliyyəti onun əsas məqsədlərinin reallaşmasının mühüm vasitəsidir. Bu vasitə qloballaşma şəraitində hüququn inkişafının əsas müasir tendensiyaları – beynəlmiləlləşdirmə və hüquqi inteqrasiya istiqamətində inkişaf edir. Gömrük məsələlərini vahid tənzimləyən normaların işlənib hazırlanması nəticəsində ÜGT çərçivəsində gömrük işi sahəsində hüquq sistemlərinin uzlaşdırılması bütövlükdə beynəlxalq ticarətin dinamik inkişafına, o cümlədən ÜGT-nin üzv-dövlətlərində gömrük işinin təkmilləşməsinə bilavasitə kömək edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı: Qanun, 2003, 256 s.
2. Əliyev Ə.İ. Dövlətlərin gömrük işi sferasında əməkdaşlığının beynəlxalq hüquqi tənzimlənməsi // Azərbaycan hüquq jurnalı, 2002, № 1, s. 97-104.
3. Heydərov K.F. Gömrük işinin əsasları. 4 cilddə. I c. Gömrük işinin təşkili və texnologiyası. Bakı: Azərnəşr, 1998, 496 s..
4. Hüseynova H.K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Bakı: Hərbi nəşriyyat, 1988, 280 s.
5. Şəkərəliyev A.S., Nuriyev C.Q., Əliyev A.Ə. Gömrük işinin təşkili və idarə edilməsi: Dərslik. Bakı: Qanun, 2003, 332 s.
6. Бекяшев К.А., Моисеев Е.Г. Таможенное право: Учебное пособие. М.: ТК Велби, Проспект, 2004, 184 с.
7. Борисов К. Г. Международное таможенное право. Учебное пособие. М.: РУДН, 1997, 224 с.
8. Габричидзе Б.Н., Чернявский А.Г. Таможенное право. Учебник. 5-е изд., перераб. и доп. М.: Дашков и Ко, 2004, 841 с.
9. Дюмулен И.И. Всемирная Торговая Организация. М.: ТОО «Офсет Принт Москва», 1997, 200 с.
10. Ершов А.Д. Международные таможенные отношения. Учебное пособие. СПб.: ИВЭСЭП, Знание, 2000, 207 с.
11. Карро Д., Жюйар П. Международное экономическое право. М.: Международные отношения.

2001, 608 с.
12. Козырин А.Н. Правовое регулирование таможенно-тарифного механизма (сравнительно-правовое исследование): Автореф. дисс. на соис. учен. степ. докт. юрид. наук. М.: 1994, 57 с.
13. Козырин А.Н. Таможенное право России. Общая часть. М.: Спарк, 1995, 134 с.
14. Международные конвенции и соглашения по внешнеэкономической деятельности. Составители: И.Г.Николаева, С.А.Кузовенкова. М.: Экономисть, 2008, 1040 с.
15. Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. 2-е изд., перераб. и доп. М.: Норма, 2007, 944 с.
16. Моравецкий В. Функции международной организации. М.: 1976, 405 с.
17. Присоединение России к международной конвенции о временном ввозе товаров // Международный бизнес товаров. 1996, №6, с.3-9.
18. Райкова А.Ю. Международная таможенная система АТА - инструмент упрощения международной торговли. М.: Научная Книга, 2007, 168 с.
19. Самедзаде З.А. Этапы большого пути – экономика Азербайджана за полвека, ее новые реалии и перспективы. Баку: Нурлар, 2004, 936 с.
20. Сандровский К.К. Международное таможенное право. Учебник. 3-е изд., стер. Киев: О-во «Знания», КОО, 2002, 461 с.
21. Malcolm N. Shaw. International Law. Forth edition. Cambridge, Cambridge University Press, Agrotivs Publication, 1997, 939 p.
22. Rebecca M.M. Wallace. International Law. London, Sweet & Maxwell, 1986, 275 p.

## НОРМОТВОРЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ВСЕМИРНОЙ ТАМОЖЕННОЙ ОРГАНИЗАЦИИ И РЕГУЛИРОВАНИЕ МЕЖДУНАРОДНЫХ ТАМОЖЕННЫХ ОТНОШЕНИЙ

**А.НАДИРОВ, В.АЛИЕВ**

### РЕЗЮМЕ

В статье нормотворческая деятельность Всемирной Таможенной Организации и регулирование международных таможенных отношений широко анализируются на основе существующих различных мнений в юридической литературе и международной практики. Отмечается, что в принятие единых и стандартных норм в сфере таможенного дела Всемирная Таможенная Организация достаточно отличается от других организаций. Так, Всемирная Таможенная Организация более широко определяет вопросы по принятие соответствующих правовых норм по согласованию правовых систем в сфере таможенного дела.

В заключении приходим к такому выводу, что деятельность Всемирной Таможенной Организации по согласованию правовых систем в сфере таможенного дела важное средство реализации ее основных целей. В результате принятие единых норм, регулирующие таможенных вопросов, согласование правовых систем в сфере таможенного дела в рамках Всемирной Таможенной Организации, в целом, непосредственно помогает динамическому развитию международной торговли, в том числе совершенствовании таможенного дела в государств-участниках.

## LAW MAKING ACTIVITY OF THE WORLD CUSTOMS ORGANIZATION AND REGULATION OF THE INTERNATIONAL CUSTOMS RELATIONS

**A.NADIROV, V.ALIYEV**

**SUMMARY**

In the article law making activity of the World Customs Organization and regulation of the international customs relations are widely analyzed on the basis of existing various opinions in the legal literature and the international practice. It is noticed that, in preparing single and standard norms in customs business sphere the World Customs Organization is quite distinguished. So, the World Customs Organization more widely defines questions on preparing corresponding rules of law as agreed legal systems in customs business sphere.

In the end it can be concluded that, the activity of the World Customs Organization on coordinating legal systems in customs business sphere is the important implementer of its main objectives. As a result of preparing single norms regulating customs questions, the coordination of legal systems in customs business sphere in the framework of the World Customs Organization, as a whole, directly conditions the dynamic development of international trade, including perfection of customs business in the member-states.